

## TURAL COŞQUN

***

Gözümün önündə qocaldın, anam,
Bizə qurban verdin öz dincliyini.
İstərəm, illərə sipər dayanam,
Qaytarım geriyə o gəncliyini.

Ağaran saçların mənim taleyim,
Dizlərin yastığım, balışım olub.
Sənsən axirətdə cənnət mələyim,
Etdiyin dualar yoldaşım olub.

Dünyaya qıyaram, sənə qıymaram,
Ömrümü xərclərəm yolunda, anam.
Oxşa saçlarımı, yenə doymaram.
Başım dizin üstə ola, qurbanam.

Axmasın göz yaşın, bağrım dəlinir,
Bizi düşündükcə xərcləndi ömrün.
O nurlu çöhrəndə kədər gizlənir,
Nə olar, anacan, sevincə bürün.

Qocalıq - uca bir zirvədir, anam,
Nurun yolumuzda ay işığıdır.
Turalam, mən sənə sadiq oğlunam,
Varlığın evimin yaraşığıdır.

***

Gəl keç küçəmizdən bir səhər çağı,
Baxıb seyr eyləyim lal gedişini.
Çəkib ürəyimə bir həsrət dağı,
Udum zəhər olan bal gedişini.

Səbirlə addımla sən yavaş-yavaş,
Nə torpaq incisin, nə də ki bir daş.
Deyirəm: Nə ola, bir səhər də kaş,
Dərdli sinəm üstə sal gedişini.

Həsrətin qəlbimi yandırdı yaxdı,
Gözlərim hər zaman yollara baxdı.
Gəlmədin, gözümdən qanlı yaş axdı,
Qayıt heç olmazsa al gedişini...

***

Səndən sonra dəyişdi
Bütün dünya gözümdə.
Boğazımda ilişdi
Söhbətim də, sözüm də.

Səndən sonra unutdum
Mən ürəkdən gülməyi.
Səndən sonra bir daha
Bacarmadım sevməyi.

Səndən sonra tanıdım
Bu vəfasız dünyanı.
Səndən sonra boş qaldı
Ürəyimin sol yanı...

***

Dolaşıq yollarda azıb qalmışam,
Sən məni özümə gətir, İlahi.
Qurumuş yaramı yağış isladır,
Tez mənə bir çətir yetir, İlahi.

Qoyma dərdi-qəmim düşsün yadıma,
Nəsib olmayanı salma adıma.
Sənə yalvarıram: Sən çat dadıma,
Dərdimi, qəmimi itir, İlahi.

Ruhum uçur bəzən qərib ellərə,
Qorxuram dəlitək düşüm dillərə.
Qıyma qonum naşı xari güllərə,
Mənə öz gülümü bitir, İlahi...

***

Bizim tərəflərdə soyuqdur yenə,
Nə külək dayanır, nə yağış durur.
Səninçün o qədər nigaranam ki,
Dua eyləməkdən dilim quruyur.

Deyirəm: Görəsən, necədir indi,
O da mənim kimi məni düşünür?
Əzizim, sən mənə çox fikir vermə,
Mənim sənsizlikdən ruhum üşüyür.

Sənsizlik üşüdür məni istidə,
Sənsiz istidə də tir-tir əsirəm.
Ruhumu isitmir daha isti də,
Səndən ümidimi artıq kəsirəm...

***

Daha axtarma məni,
Mən həmin mən deyiləm.
Çoxdan unutdum səni,
Artıq sən də deyiləm.

Gözlərin axtarmasın,
İnsanlar içrə məni.
Tapsan da tanımarsan,
Çün o insan deyiləm.

Gəzdiyimiz yerləri,
Boşu-boşuna gəzmə.
Hər an məni düşünüb,
Özünü çox da üzmə.

Uyub qəlbin sözünə,
Zülm eyləmə özünə.
Düşüb çölün düzünə,
Daha axtarma məni.

Dayanıb yol üstündə,
Soruşma hər ötəndən.
O sevgimiz bitəndən.
Daha axtarma məni...

***

Dəli bir ağlamaq keçsə könlündən,
Qaç gəl sən yanıma dərdlər əlindən.
Həyat səni sıxsa, naşükür olma,
Yoxsa dərd çəkərsən sən də dilindən.

Həyat zərbələrin vecinə alma,
Səssizcə ömrünü keçir üstündən;
Yox əgər dərdlərin bezsən selindən,
Dayan bax o zaman öz sahilindən.

Ömrün fırtınası, tufanı olur,
İnsan bir gül kimi saralır, solur.
Sevincli günləri keçir qəlbindən,
Çalış, əziz dostum, qaç kədərindən.

Yenə bir tənhalıq keçsə bətnindən,
Mən alaram səni onun əlindən.
Nə vaxtsa ağlamaq keçsə könlündən,
Şeiri oxuyarsan, dostum, dərindən...

***

O gözləri mən hardasa görmüşəm,
Qara deyil, dəniz təki mavidir.
O gözlərdə boğulasan, öləsən,
Bu qız mənə tanış gəlir, deyəsən.

Sarı saçlar gərdanına tökülmüş,
Qara xallar yanağına düzülmüş.
Ağlayır, gözündə yaş giləlınmiş,
O yaşlarda o qız ilə çiməsən.
Bu qız mənə tanış gəlir, deyəsən.

Dayanmır yanımda, keçir uzaqdan,
Boylanıram, baxmır mənə bayaqdan.
Dinsəydi, bir söz çıxsaydı dodaqdan,
Sevir yoxsa sevmir? Onu biləsən;
Bu qız mənə tanış gəlir, deyəsən...

***

Allahım, nə olar bircə ricam var:
Bu yağan yağışı saxla, İlahi.
Sənə bu günlərdə bircə duam var:
Bu yağan yağışı saxla, İlahi.

Bu istək tək mənim istəyim deyil,
Bu yağış heç kimə gətirmir xeyir;
Qoca da, cavan da tək bunu deyir:
Bu yağan yağışı saxla, İlahi.

Ürəyim sıxılır, üzüm gülməyir,
Əsgərim nə çəkir, kimsə bıımәyir;
Yağan bu yağışı heç kim sevməyir,
Saxla bu yağışı saxla, İlahi.

İslanır cəbhədə yağışda əsgər,
Biz isti evdəyik, bağışla, əsgər;
Bu anda yağışı de bir kim sevər,
Saxla bu yağışı, saxla, İlahi.

İşinə qarışmaq çıxır, bəlkə də,
Bəlkə, bu istəklə günah edirəm;
Əl açıb mən səndən dua edirəm:
Bu yağan yağışı saxla, İlahi..